# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zəfər dastanımızı yazan şəhidlər



5

SƏS

№ 231 (7399)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

16 dekabr 2025-ci il.
Qiyməti 60 qəpik

## Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsünü irəli sürüb



2

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövləti qurulub möhkəmlənmiş, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmışdır.

# İşğalçının ədalət axtarışı




3

## Qara çörək: gizli riskləri NƏLƏRDİR?



4

## Yeni ildə Azərbaycan manatının dollara qarşı məzənnəsi necə olacaq?



6

## Sərxoşla Fəlakətin faciəsi



4

## Putinin SSRİ ideyası Avropanı silkələyir...



4

## Uşaqlar niyə yorulur? Məktəblərdə dərs yükü və psixoloji mühit problemi



5

# Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsünü irəli sürüb

*Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövləti qurulub möhkəmlənmiş, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlətçiliyimizin hüquqi təməlini yaratmışdır.*



Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edilmişdir.

AZƏRTAC xəbər verir ki, suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb.

Amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19–20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur. Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan Amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

# Dünya türk dili ailəsi



## Prezident İlham Əliyev: "Türk dünyası 200 milyondan çox insanın yaşadığı geniş bir coğrafiyanı əhatə edir"

Müasir dünyada ürk birliyi qlobal gücə çevrilib və türkdilli dövlətlərin mövcud sıx əlaqələri əməkdaşlığın daha da gücləndirilməsinə müsbət təsirini göstərəcəkdir. Qeyd edək ki, bu gün türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərir. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır.

UNESCO-nun 3 noyabr 2025-ci il tarixində Səmərqənddə keçirilmiş 43-cü Ümumi Konfransı zamanı 15 dekabr günü Dünya Türk Dili Ailəsi Günü kimi elan edilib. Bu mühüm qərar, Türk dilinin qədim köklərini və ümumbəşəri dəyərlərini özündə ifadə edir. Mədəni və dil müxtəlifliyinin qorunmasına həsr olunmuş ən aparıcı institut olan UNESCO çərçivəsində bu günün elan edilməsi, eyni zamanda Türk Dünyasının yüksələn kimliyinin, dəyərlərinin və bu günkü qlobal səhnədə artan rolunun da təsdiqidir.

Üeyd edək ki, bütün dövrlərdə dünya dilləri çox az sayda olub. Zaman keçdikcə bu dillər arasında bölünmə getmiş, bir dildən onlarla yeni dil formalaşmış və formalaşanlarında hər birindən sonralar yenə başqa dillər əmələ gəlmişdir.Bu gün dünyada 3500-dən çox dil var. Bu törəmə prosesi ilə yanaşı, həm də onlarla dil ölmüşdür. Qədim ulu türk dili şaxələrə ayrılır. Beləki, Oğuz dili, Qıpçaq dili, Qarluq dili, Sibir dili, Çuvaş dili, Saxa (yakut dili) dili.

Oğuz dilindən — Azərbaycan, Qaqauz, Türkmən və Türkiyə türkcəsidir. Mənbələrə istinafən deyə bilərik ki, Avropadan Sibirə və Çinə qədər uzanan ərazidə ana dili olaraq 180 milyon insan tərəfindən, ikinci dil olaraq danışanlar da sayılarsa təxminən 250 milyon insan tərəfindən danışılan, 40 ayrı yazı dilinə bölünən, qədim tarixə malik olan bir dil — Türk dilləri vardır. Türk dilləri Altay dilləri ailəsinə aiddir. Ən çox danışılan Türk dili-Türkiyə Türkcəsidir. Daha sonra Azəricə, Özbəkcə, Uyğurca, Kazakca və Tatarca gəlir. Türk dilləri ailəsi kinetik əlamətlər əsasında təsnif edilən ən böyük dil ailələrindən biridir. Bu dil ailəsində 23-dən çox dil vardir. Bu dillər çox ətraflı tədqiq edilmişdir.

Başqa dil ailələrində olduğu kimi, türk dilləri ailəsinə daxil edilən dillər də bir-birinə leksik, morfoloji və sintaktik cəhətdən çox yaxındır. Qohum dillərdəki belə yaxın və oxşar cəhətlər bunların bir ana dildən ayrılıb inkişaf etdiklərini göstərir. Türk dilləri ailəsinə daxil olan dillər bir-birinə yaxınlıq etibarilə başqa dil ailələrindən seçilir. Belə ki, bu ailəyə daxil olan dillər bir-birindən çox az fərqlənir. Məsələn, Hind-Aropa dillərini götürək. Buraya həm rus, həm də erməni dili daxildir. Məlum olduğu üzrə bunlar arasındakı fərq çox böyükdür.

### "Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib"

Azərbaycanın bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməkdədir. Bu isə Azərbaycanın dünyanın müxtəlif qitələrində olan ölkələrlə əlaqələrinin müsbət dinamikada inkişafında mühüm rol oynayır. Mövcud münasibətlərin inkişafına nəzər salsaq görərik ki, Azərbaycan ilə türk dövlətləri arasında qarşılıqlı əməkdaşlıq münasibətləri yüksələn bir xətlə inkişafdadır və münasibətlər strateji əməkdaşlıq səviyyəsindədir. Bu möhkəm dostluq üzərində qurulub. Ölkələr arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Türk dövlətləri və xalqları arasında siyasi-mədəni bağların möhkəmləndirilməsi yaşadığımız dövrdə yeni mərhələyə yüksəlib. Azərbaycan türk dövlətləri ilə konstruktiv tərəfdaşlıq münasibətlərinin qurulması ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Müasir dünyamızda türk dövlətləri arasında qurulan əməkdaşlıq daha da güclənib və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib.

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaq. 2009-cu ildə Naxçıvan Zirvə Görüşündən başlayaraq təşkilatımız böyük inkişaf yolu keçmişdir". Naxçıvan Sazişinə əsasən, müəyyən edilmiş əsas fəaliyyət məqsədləri və vəzifələri, tərəflər arasında qarşılıqlı etimadın möhkəmləndirilməsi, regionda və dünyada sülhün bərqərar edilməsi, xarici siyasət məsələlərinə ortaq yanaşmanın təşviq edilməsi, beynəlxalq terrorizm, ortaq maraq kəsb edən bütün sahələrdə regional və ikitərəfli əməkdaşlığın gücləndirilməsi və s. məsələlərə önəm verilir. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib.

### "BİZ HAMIMIZ ƏNƏNƏVİ DƏYƏRLƏR ÜZƏRİNDƏ ÖLKƏLƏRİMİZİ İNKİŞAF ETDİRİRİK"

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış – 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. Cənab Prezident Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün tarixi əhəmiyyətinə toxunaraq bildirib ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var: "Çünki bu təşkilatın təməlində tibii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir.

Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk".

Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilib. Türkdilli dövlətlərarası irimiqyaslı infrastruktur layihələri də reallaşdırılıb və bu davamlıdır. Hazırda bir sıra böyükmiqyaslı layihələr həyata keçirilməkdədir. Əlbəttə ki, bütün bunlar türk dünyasını vahid bir məslək ətrafında birləşdiyinin təcəssümüdür.

**Nəzakət ƏLƏDDİNQIZI**

# İşğalçının ədalət axtarışı

## Rusiya Ukraynanı soyqırımda ittiham edir

***Beynəlxalq Ədalət Məhkəməsi Rusiyanın Ukraynaya qarşı Luqansk və Donetsk vilayətlərində soyqırım törətdiyinə dair əks iddiasını qəbul edib. Bu, ABŞ Senatında ukraynalı uşaqların ruslar tərəfindən oğurlanması ilə bağlı son dinləmələr fonunda baş verib. 2025-ci il dekabrın 5-də isə Beynəlxalq Ədalət Məhkəməsi Rusiya Federasiyasının Soyqırım Cinayətinin Qarşısının Alınması və Cəzalandırılması Konvensiyasına uyğun olaraq Ukraynaya qarşı əks iddiasının məqbul sayıldığını bildirib.***

Bu addım rəsmi olaraq məhkəmənin Ukraynanın Donetsk və Luqansk vilayətlərində iddia edilən "soyqırım aktları" ilə bağlı Rusiyanın mövqeyini nəzərə aldığını və onun davam edən proseslərə daxil edilməsinə icazə verdiyini bildirir. Lakin Ukraynanın bu əks iddianın rədd edilməsi ilə bağlı vəsatəti təmin edilməyib və məhkəmə Rusiyanın iddialarının əsas işin predmeti ilə bağlı olduğunu müəyyən edərək, onlara birlikdə baxılmasına şərait yaradıb. Ukraynanın 2026-cı il dekabrın 7-nə qədər, Rusiyanın isə 2027-ci il dekabrın 7-dək cavabı var. Xatırladaq ki, Ukrayna ilkin şikayətində Rusiyanı soyqırımda ittiham etməyib, əksinə, 2022-ci ilin fevralında Rusiyanın genişmiqyaslı təcavüzünün başlaması ilə birbaşa əlaqəli olan bu cür iddialara dair sübutların rədd edilməsini tələb edib. Rusiya isə öz növbəsində bu tapıntıları rədd edir və hesab edir ki, soyqırım hədəf bölgələrdə baş verib ki, bu da iş üzrə əks iddianın verilməsi üçün əsas olub. Bununla belə, Beynəlxalq Ədalət Məhkəməsi özü əvvəlki qərarında müəyyən edib ki, sübutları nəzərdən keçirərkən Donetsk və Luqansk vilayətlərində soyqırımı ilə bağlı heç bir mötəbər dəlil yoxdur və belə bir soyqırım iddiası Rusiyanın güc tətbiq etməsinə rəsmi əsas vermir. Bu, Məhkəmənin bu bəhanə ilə işğalın yolverilməz olduğu qənaətinə gəlməsi üçün hüquqi əsas yaradıb.

Eyni zamanda, ABŞ Senatında da bu yaxınlarda davam edən müharibə kontekstində ukraynalı uşaqların Rusiya qüvvələri tərəfindən oğurlanması ilə bağlı dinləmələr keçirilib. Vaşinqtonda Nümayəndələr Palatasının Təxsisatlar Komitəsinin iclası zamanı insan haqları üzrə ekspertlər uşaqların işğal olunmuş ərazilərdən məcburi köçkünlüyünün sistemli xarakterinə diqqət çəkiblər. Xüsusilə, Ukraynadan zorla çıxarılan ən azı bir neçə uşağın həqiqətən də Şimali Koreyadakı düşərgəyə köçürüldüyünə dair rəsmi ifadələr təqdim edilib. Şahidlərin sözlərinə görə, bu uşaqlar ideoloji proqramlar və hərbçilərlə təmas yolu ilə "yenidən təhsilə" məruz qaldıqları mühitə yerləşdirilib, bu da geniş miqyaslı assimilyasiya və nəzarət şəbəkəsinin mövcudluğunu təsdiqləyir.

### Sübutlar qarşısında uğursuzluq

BMT-nin planetə təsiri hazırda "sıfırdır" və buna görə də baş verənləri qiymətləndirmək üçün bir müddət əziyyət çəkmək lazım gələcək. İnsan Hüquqları Şurası tərəfindən yaradılmış Ukraynada İnsan Hüquqları Pozulmaları üzrə müstəqil BMT-nin Təhqiqat Komissiyası öz hesabatlarında Rusiya Federasiyasının törətdiyi çoxsaylı ağır cinayətləri, o cümlədən məcburi köçkünlük və işgəncələri sənədləşdirib. Komissiya həmçinin qeyd edir ki, Rusiya KİV-ləri tərəfindən yayılan ritorika soyqırıma açıq çağırış təşkil edə bilər.

Eyni zamanda, bir çox hüquq analitikləri Rusiyanın bütün hərəkətlərini insan haqlarının ciddi şəkildə pozulması, soyqırım davranışı kimi qiymətləndirirlər. Bununla belə, soyqırımın sübutunun hüquqi standartı insanlığa qarşı ümumi cinayətlər və ya müharibə cinayətləri ilə müqayisədə xeyli yüksəkdir. Yekun məhkəmə qərarları hələ də qəbul edilir, o cümlədən ICJ (Beynəlxalq Ədalət Məhkəməsi, BMT-nin əsas məhkəmə orqanı), eləcə də digər hüquqi mexanizmlər.

Lakin bu müzakirələr davam edərkən, bir sıra Qərb ekspertlərinin təsdiq etdiyi kimi, ruslar ukraynalılara qarşı soyqırım beynəlxalq münasibətlərdə ən böyük təhlükəsizlik böhranlarından birinə çevrilib. Müharibə nəticəsində yüz minlərlə insan həlak olub, milyonlarla nəfər evini tərk etməyə məcbur olub və döyüş əməliyyatları zamanı çoxsaylı mülki əhali zərər görüb. Bu dağıntılar müxtəlif dövlətlər, beynəlxalq təşkilatlar və insan haqları qrupları tərəfindən müzakirə olunur və bəzi aktorlar Rusiya qüvvələrinin hərəkətlərini soyqırımı termini ilə xarakterizə edirlər. Beynəlxalq hüquqda "soyqırımı" termini 1948-ci il Soyqırımın Qarşısının Alınması və Cəzalandırılması Konvensiyasında müəyyən olunur. Bu konvensiyaya görə soyqırımı müəyyən bir millət, etnik, irqi və ya dini qrupu (qismən və ya tamamilə) məhv etmək məqsədi ilə törədilən hərəkətlər təşkil edir.




törətməkdə davam edir. Məsələn, NewLines Strategiya və Siyasət İnstitutunun (Vaşinqton, ABŞ) və Raul Uollenberq İnsan Hüquqları Mərkəzinin (Monreal, Kanada) hüquqi hesabatında Rusiyanın hərəkətlərinə belə qiymət verilir: "Biz dünyanın hər yerindən aparıcı hüquq ekspertlərini topladıq, onlar bütün sübutları nəzərdən keçirdilər və onlar belə qənaətə gəldilər ki, Rusiya Federasiyası Ukraynada Soyqırım Konvensiyasının pozulmasına görə məsuliyyət daşıyır".

Bundan başqa, CNN-in bəyanatında təqdim olunan hüquqi brifinqdə amerikalı və kanadalı hüquqşünaslar açıq şəkildə vurğulayırlar ki, "Rusiyanın Ukraynadakı hərəkətləri Moskvanın soyqırımı qızışdırdığı və Ukrayna xalqının məhvinə yönəlmiş vəhşiliklər törətdiyi qənaətinə gəlmək üçün kifayət qədər əsas verir". Bu hesabat Rusiyanın Soyqırım Konvensiyası kontekstində hərəkətlərini qiymətləndirmək üçün əsas kimi CNN və digər Qərb KİV-ləri tərəfindən geniş şəkildə yayılıb. Bu mətndə Rusiyanın hərəkətlərinin təhlili çərçivəsində "soyqırıma təhrik" anlayışından istifadə edilən qiymətləndirmənin hüquqi mahiyyəti vurğulanır.

Cons Hopkins Universitetində soyqırım və siyasi zorakılıq üzrə Qərb eksperti Yevgeni Finkelin hamılıqla qəbul edilmiş hüquqi və tarixi kontekstdən çıxış edərək birbaşa qiymətləndirməsi var. O qeyd edir ki, "...Ukraynanın tammiqyaslı işğalının birinci mərhələsi dəf edildikdən sonra, Buçada kütləvi qətllər də daxil olmaqla, irimiqyaslı müharibə cinayətlərinin sübutu, potensial məhv etmək niyyəti ilə birlikdə soyqırımın baş verdiyini sübut edir".

### Faktlar, hüquqi çərçivə və beynəlxalq reaksiyalar

2022-ci ilin fevralında Rusiya Federasiyası Ukraynaya genişmiqyaslı hərbi müdaxilə başladıb və bu, müasir

Bu tərifə uyğun olaraq, soyqırımı yalnız fərdlərin öldürülməsini deyil, həm də müəyyən qrupun həyat şəraitinin məhv edilməsini, uşaqların zorla digər qrupun nəzarətinə verilməsini və doğurma qabiliyyətinin məhdudlaşdırılmasını da əhatə edən genişmiqyaslı çərçivə daxildir.

### Beynəlxalq məhkəmə prosesləri

Rusiyanın Ukraynada soyqırımı törətməsi ilə bağlı iddialar birbaşa beynəlxalq məhkəmələrdə müzakirə olunur. Ukrayna 2022-ci ildə Rusiya əleyhinə Beynəlxalq Ədalət Məhkəməsində (ICJ) soyqırımı konvensiyası üzrə iş qaldırıb. Bu şikayət əsasında Rusiya iddia etdiyi "soyqırımı iddialarını" öz müdafiəsinə çevirmişdi, lakin məhkəmə bu iddianın yalnız bəzi hissələrini baxılmağa layiq hesab edib. Beynəlxalq Cinayət Məhkəməsi (ICC) Rusiya rəhbərliyi və digər şəxslər haqqında Ukraynada uşaqların zorla köçürülməsi kimi spesifik cinayətlərə görə həbs qərarları çıxarıb. Bu qərarlar müharibə cinayətləri və bəşəriyyətə qarşı cinayətlərə yönəlib, lakin soyqırımı tərkibini ayrıca təsdiq etmir. Rusiyanın Ukraynada soyqırımı törətdiyi iddiaları münaqişənin ən ciddi və mürəkkəb məsələlərindəndir. Dünya ictimaiyyəti, hüquqşünaslar və beynəlxalq təşkilatlar bu iddiaları araşdırmağa davam edir. Hal-hazırda bəzi ciddi sübutlar — mülki əhaliyə qarşı zorakılıq, qeyri-bərabər hücumlar və uşaqların zorla köçürülməsi kimi halların mövcudluğu göstərilir, lakin soyqırımın hüquqi olaraq sübut olunması üçün hələlik yekun məhkəmə qərarları gözlənilir. Hər halda bu məsələ beynəlxalq hüquqi standartlar və insan hüquqlarının tətbiqi üçün ən mühüm sınaqlardan biri olaraq qalır.

**V.VƏLİYEV**

RAKURS



Mətanət Məmmədova

## Qadın qızlar...

***Bəlkə də sərlövhə çox insan üçün qəribə görünəcək, deyəcəklər, necə yəni "qadın qızlar?...". Lakin dediklərimdən sonra elə həmin insanlar mənimlə razılaşacaq.***

Şəxsiyyət vəsiqəsində cins olaraq yalnız qadın və kişi yazılır. Bu qadın və kişilər hər zaman ata-ananın gözündə, dilində "qızım", "oğlum" olaraq qalır. Cəmiyyətdə isə müəyyən zaman kəsiyində qadınlar qız, kişilər oğlan adlanır. Yaşa dolduqca, qızlar qadın, oğlanlar kişi olur. Oğlanlar və qızlar həm də ailə qurandan sonra bu titullara yiyələnir: kişi, qadın, daha sonra isə ata, ana.

Başqa cəmiyyətlərdə bəlkə də tamamilə fərqlidir. Lakin bizim cəmiyyətimizdə belədir ki, sənəddə necə yazılmasından asılı olmayaraq ailə qurmayan qadın qız adlanır. Sanki gəlin köçəndən, dünyaya övlad gətirəndən sonra böyüyür, qadınlaşır və bu adı daşıyır.

Və əsas-qadınla qızı bir-birindən əsrlərlə fərqləndirən məsələyə gəlmək istəyirəm. Vaxtilə qızlar qaş və üzlərini gəlin köçən günlər ərəfəsində səliqəyə salardılar. Qızlar gəlin köçəndən sonra qızıl zinət əşyalarından istifadə edərdilər. Bəzi geyimlərlə də qadınla qız bir-birindən fərqlənərdi.

Nə təmizliyin, nə səliqənin əleyhinə deyilik, xeyr. Düzgün başa düşülməmi xahiş edirəm. Lakin bu, elə bir dərəcədə olmalı idi ki, qızla qadın arasında bir fərq olsun.

İndi kənd-şəhər, fərq etmir, hər yerdə qadın qızlarla rastlaşırıq. Heç cür ayırd etmək olmur ki, bunların hansı qadın-yəni ailə quran, gəlin köçəndir, hansı hələ bu mərhələləri keçməyəndir. Hələ qızı orta məktəbi bitirməmiş analar onları qaş və üzlərini səliqəyə salmaq üçün gözəllik salonlarına yollayır və yaxud da özləri ilə birlikdə aparırlar.

Səliqənin əleyhinə deyilik, yenə deyirəm. Lakin bu səliqəni elə bir formada etmək olardı ki, qızla qadın bir-birindən fərqlənsin. Əvvəllər toyu olan qızları səhəri gündən etibarən hamı görmək istəyirdi. Çünki o, tamamilə dəyişirdi. Üzünə bir gözəllik gəlirdi. Hamı bu gözəlliyi, dəyişikliyi görməyə can atırdı. Lakin indi qızları toydan əvvəl necə görürüksə, toyun səhəri günü də eyni görürük. Dəyişən heç nə olmur üzlərində. Təəssüf ki, onların üzlərində dəyişən bir şey olmasa da, lakin dəyərlərimizdə dəyişilənlər həddən artıqdır. Elə bunun özü də dəyərlərimizdən biri idi ki, dəyişdik, məhv etdik.

Qadınlaşan qızlar bu incə, heç də hər xalqa məxsus olmayan dəyəri məhv etdi. Biz böyüklərqızlarımıza əlimizlə bu dəyişiklikləri edənlər isə göz yumduq hər şeyə. "Müasir dövrdür",- deyib dəyərlərimizi dəyərdən saldıq. Qızlarımıza qızıl zinət əşyaları aldıq, onlar da bunlardan yetərincə istifadə etməyə başladılar. Bahalı pal-paltar aldıq, həm də yaşlarına uyğun olmayan paltarlar. Beləliklə, cəmiyyətdə kimin qadın, kimin qız olmasına son qoyduq. Toyundan sonra gəlinlik xonçalarından geyinən qadınla universitetə gedən qızların geyimi də, zinət əşyaları da bir oldu. Qaş-üzləri də həmçinin.

Odur ki, bu gün qızların yalnız ailə üzvləri, qohumları, rəfiqə və tələbə yoldaşları onların ailə qurmadığından xəbərdardır. Yoxsa mənim kimi kənardan baxan yüzlərlə insan nə bilsin ki, bunlar ailə qurub, yoxsa qurmayıb... Bunun əlamətlərini məhv etmişik. Ona görə də gözə dəymir. Desəm, nə edək ki, bunu yenidən bərpa edək? Sualıma cavab tapa bilmirəm. Bəs siz?

# Qara çörək: gizli riskləri NƏLƏRDİR?

ARAŞDIRMA

Uzun illərdir insanlar arasında formalaşmış bir inanc var - qara çörək faydalıdır. Lakin bütün qara çörəklər eyni deyil və hər tünd rəngli çörək mütləq şəkildə sağlam demək deyil. Bu məsələyə obyektiv yanaşmaq üçün həm tərkibini, həm hazırlanma prosesini, həm də sağlamlığa təsirlərini nəzərdən keçirmək lazımdır.



### Bəs, qara çörək həqiqətən də faydalıdır?

Tarixən qara çörəyin hazırlanmasında dənənin bütöv şəkildə istifadə edilməsi əsas rol oynayıb. Buğdanın kəpək və rüşeym qatları unun içində qaldığı üçün çörək həm daha dolğun dadlı olur, həm də tərkibindəki mikroelementlər qorunur. Bu qatlarda olan maqnezium, fosfor, dəmir, B1, B2, B6 vitaminləri, fol turşusu və antioksidantlar ağ undan hazırlanmış çörəyə nisbətən daha yüksək olur. Ağ un hazırlanarkən bu qatlar kənarlaşdırıldığı üçün çörək daha yumşaq və uzunömürlü olsa da, qidalandırıcılığı azalır. Məhz buna görə qara çörək “daha sağlam” imici qazanıb. Lakin müasir istehsalda bu prinsip çox zaman pozulur və çörək sadəcə tünd rəngləşdirilir.

Qara çörəyin sağlamlığa təsirləri arasında ən əsas məqamı onun qan şəkərinə təsir mexanizmidir. Tam taxıl çörəyi qan şəkərini daha yavaş yüksəltdiyi üçün pankreas üzərində yük az olur. Bu, təkcə diabeti olan şəxslər üçün deyil, sağlam insanlar üçün də əhəmiyyətlidir, çünki sürətli şəkər pikləri tez acma hissi yaradır və enerji dalğalanmaları nəticəsində yorğunluq, halsızlıq və hətta diqqət dağınıqlığı baş verə bilir. Lifli unla hazırlanan çörək isə daha stabil enerji axını təmin edir və bununla gündəlik fəaliyyət üçün daha davamlı zəmin yaradır. Bu səbəbdən idmanla məşğul olanlar və ya uzun müddət fiziki iş görənlər üçün də tam taxıl çörəyi daha əlverişlidir. Tərkibindəki lifin yüksək olması bağırsaq mikroflorasına da müsbət təsir göstərir. Faydalı bakteriyaların qidalanması üçün lazım olan prebiotik liflər qara çörəkdə daha çoxdur. Bu bakteriyalar immun sisteminin güclənməsinə, hormon tənzimlənməsinə və ümumi metabolik sağlamlığa təsir edir.

### Zərərlərinə gəldikdə isə

Bağırsaq sağlamlığının artıq bütün orqanizmə təsir etdiyi elmi olaraq sübut olunub. Bu baxımdan tam taxıl məhsullarının qəbul edilməsi uzunmüddətli sağlamlıq baxımından töhfə verir. Lakin burada “orta miqdar” anlayışı vacibdir. Lifin həddindən çox olması bəzi insanlarda qıcıqlanma, köp və sancı yarada bilər. Xüsusilə ani şəkildə lifli qidaya keçid edən insanlarda adaptasiya dövrü olur.

Qara çörəyin mümkün zərərlərindən biri də onun bəzi növlərinin fermentasiya prosesində istifadə edilən mayaya qarşı həssas insanlarda allergik reaksiyalar yaratmasıdır.

### Sağlam və düzgün üsulla hazırlanmış qara çörəyi necə seçmək olar?

Müasir qara çörək istehsalında diqqət edilməli başqa bir məqam istifadə edilən unun həqiqətən tam taxıl olub-olmamasıdır. Tam taxıl unu ilə kəpəyi sonradan ağ una qarışdırılmış un arasında fərq var. Birincidə təbii struktur qorunur, ikincidə isə dənənin lif tərkibi saxlanılsa da, rüşeym hissəsi çox zaman olmur. Rüşeym qida maddələri ilə xüsusilə zəngindir və onun olmaması çörəyin bəzi faydalarını azaldır. Buna görə keyfiyyətli çörəklərdə adətən “100% tam taxıl” və ya “bütöv dənəli” qeyd olunur. Digər tərəfdən, bəzi qara çörək növlərinin kalorisi ağ çörəyə çox yaxın olur, bəzən isə istifadə olunan toxumlar, yağlar və digər əlavələrə görə daha da yüksək ola bilər. Bu da çəki azaltmağa çalışan insanlar üçün aldadıcı vəziyyət yarada bilər. Çörək rənginin tünd olması doyduruculuğunu dəyişmir və nə qədər sağlam olsa da, porsiya nəzarəti yenə də vacibdir.

Son olaraq, qara çörək seçərkən ən sağlam olanlar adətən təbii mayalı, tərkibi sadə və ən az emal edilmiş çörəklərdir. Ev üsulu hazırlanan və ya etibarlı çörəkbişirmə yerlərindən alınan çörəklər daha təhlükəsiz seçimdir. Hər gün çörək istehlak edirsinizsə, unun növünə, tərkibinə və əlavə maddələrin olub-olmamasına baxmaqla seçiminizi daha sağlam edə bilərsiniz.

Beləliklə, qara çörək doğru şəkildə hazırlanmışsa və düzgün miqdarda istehlak edilirsə, sağlam qidalanmanın mühüm bir hissəsi ola bilər. Lakin onun faydalı olması rənginə deyil, tərkibinə, lif miqdarına, fermentasiya üsuluna və şəxsi həzm xüsusiyyətlərinə bağlıdır.

**Arzu Qurbanlı**

# Putinin SSRİ ideyası Avropanı silkələyir...



*Mətləb Salahov: "Almaniya Kanslerinin iddiaları həqiqətdirsə, o zaman Rusiya-Avropa müharibəsi qapıdadır"*

“Artıq Rusiya və Avropa Birliyi arasındakı münasibətlər açıq düşmənçilik həddinə çatıb. Bu münasibətləri ”Qoca qitə” ilə ABŞ Administrasiya arasındakı münasibətlərə də şamil etmək olar. Çünki həm Vladimir Putin, həm də Donald Tramp bir sıra həlledici məsələlərdə birgə hərəkət etməklə Avropa İttifaqı üçün hədəf halına gəliblər. Artıq iş o yerə çatıb ki, Almaniya Kansleri Fridrix Merz açıq şəkildə V.Putinin Ukraynada dayanmayacağını, keçmiş SSRİ sərhədləri çərçivəsində Avropa ilə ”çəpər çəkməyi” planlaşdırdığını deyir. Almaniya Kanslerinin iddiaları həqiqətdirsə, o zaman Rusiya-Avropa müharibəsi qapıdadır.

Üstəgəl nəzərə alsaq ki, hazırkı ABŞ hakimiyyəti də əvvəlki vaxtlardan tam fərqli olaraq Qərbin deyil, məhz Rusiyanın yanındadır, o zaman vəziyyətin kritik həddə olduğu aşkar ortadadır.”

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, hazırkı siyasi mənzərə onu göstərir ki, D.Tramp Avropanı Rusiyanın ”qucağına atır”. ”Diqqət edin: D.Tramp Ukrayna müharibəsini vəd etdiyi kimi heç cürə bitirə bilmir. Çünki V.Putin məsələnin məhz onun dediyi şərtlərlə yekunlaşmasını istəyir. Kreml sahibinə müqavimət göstərə bilməyən D.Tramp var gücü ilə Volodimir Zelenskini və Avropa liderlərini də müharibəni məhz V.Putini dediyi şərtlər daxilində bitirməyi təklif edir. Lakin Avropa liderləri anlayırlar ki, bu proses baş versə, o zaman Rusiyanı dayandırmaq mümkünsüz olacaq. Çünki məhz Moskvanın şərtləri ilə reallaşacaq həll variantı Rusiyanı növbəti hədəflərə həvəsləndirəcək. Üstəlik Ukraynanın NATO-ya üzv olmayacağı barədə Aİ rəhbərlərinin bəyanatları da eşidilməyə başlayıb. Lakin Ukrayna həm də Avropa üçün Rusiya ilə ikinci ”Berlin divarı” halına da gəlib. Bu, günün reallığıdır. Əgər Avropanın təhlükəsizliyini nəzərə alan müddəalar olmasa, Ukraynada müharibə bitməyəcək və bu da o deməkdir ki, Avropa-Rusiya müharibəsi də yavaş-yavaş qapıya yaxınlaşır”.

**Afət Tahirqızı**



# Sərxoşla Fəlakətin faciəsi

**Elçin Bayramlı**

***Bu il Azərbaycanda uşaqlara ən çox qoyulan populyar adlar açıqlanıb. Əvvəlki dövrlərdən fərqli olaraq bu il oğlanlara ən çox qoyulan adlar sırasına yeni ad- Miran adı daxil olub. Məhəmməd adı isə populyar adlar sırasından çıxıb. Qızlara ən çox qoyulan adlar sırasına yeni ad- Alisa adı daxil olub, Mələk adı isə populyar adlar sırasından çıxıb. Göründüyü kimi, ənənəvi və milli adlarımız getdikcə sıradan çıxır, yerini mənası bilinməyən qondarma əcnəbi adlar tutur.***

”Nə olacaq ki?” deyib keçməyin. Ad məsələsi çox vacib məsələdir. Adın bir mənəvi yükü, bir psixoloji təsiri, bir energetikası var. Adlar milli mədəniyyətin ən əsas komponentlərindən biridir. Bir növ milli identifikasiya sistemidir. Hər bir xalq, millət, öz tarixi adları ilə də tanınır və bu seçim yüz illərlə, min illərlə davam edən bir irsə dayanır. Yaxşı olar ki, biz özümüzün milli adlarımızı itirməyək, yaşadaq və mənası yaxşı, səslənişi rahat olan adlara üstünlük verək. Çox təəssüf ki, son vaxtlar başqa tendensiyalar baş verir, bu da əsasən əcnəbi dillərdən mənşəyi, mənası məlum olmayan adların uşaqlara qoyulmasıdır, hətta bəzilərinin mənası neqativ bir məna daşıyır. Belə adlardan uzaq durmaq lazımdır. Çalışmaq lazımdır ki, öz milli mədəniyyətimizə və mənəvi irsimizə uyğun adlar qoyaq. Yeni adları da öz sözlərimizdən istifadə etməklə yaratmaq olar. Başqa dillərdən də götürmək olar. Amma heç olmasa, səslənişi, mənası, qəbul edilməsi dilimizə uyğun adlara üstünlük vermək olar.

Ümumiyyətlə, ad seçərkən dəbə fikir vermək lazım deyil, yəni seriallarda, filmlərdə nə ad görüb onu götürüb uşağa qoymaq düzgün deyil. Ad insanın həyatına da müəyyən bir təsir göstərir. Bu baxımdan valideynlər dəblə yox, mənəvi kökü olan, yaxşı mənası olan müsbət adlara üstünlük verməlidir. Qondarma adlar 3 il, 5 il dəbdə olur, sonra dəbdən düşür, mənasız bir ad kimi qalır. Ad seçərkən kriteriyalar elə olmalıdır ki, biz milli köklərimizdən uzaqlaşmayaq. Əsasən Azərbaycana aid adlar qoyaq. Məsələn, təbiətdən götürülmüş adlar, ruhani şəxslərin adları, milli mədəniyyətimizə aid olan sözlərdən, tarixi şəxsiyyətlərimizin adları ola bilər. Bəzi adamlar tarixi coğrafi ərazilərimizin adlarından da qoyur ki, bu da normaldır. Yəni, ad elə olmalıdır ki, özündə Azərbaycanlılığı daşısın, kökə bağlı olsun, nəinki qondarma süni adlar, yaxud seriallardan götürülən çox vaxt mənasını billmədikləri adlar olsun.

Bəzən mənası çox pis olan adlar qoyulur uşağa. Məsələn, şəxsən mən Fəlakət, Sərxoş adlı adamlar tanıyıram. Bu adlar həmin insanların həyatında ciddi problem yaradır. Onlar başqaları tərəfindən lağa qoyulur. Bəziləri böyüyəndə adını sonradan dəyişməyə məcbur olur. Bu da əlavə problemlər yaradır. Yəni bu məsələyə ağılla, şüurla və milli-mənəvi dəyərlər üzərindən yanaşılmalıdır. Azərbaycan irsinə, milli mədəniyyətimizə, mənəviyyata aid, təbiətimizə, tariximizə aid bu kimi adları yaşatmaq lazımdır ki, milli irsimizi itirməyək. Min illərdir gələn adlar sistemini dəyişib əcnəbi adlara keçsək, tarixlə əlaqəmiz qalmaz, yəni xalqımızın əvvəlki əsrlərdə olan adları ilə indikilərin adları uyğun gəlməz. Sanki başqa-başqa millətlərdən söhbət gedir. Ona görə bu məsələ çox vacibdir. Bununla bağlı maarifləndirmə də, müəyyən izahat işləri də aparılmalıdır. Valideynlərə də izah olunmalıdır ki, mümkün qədər düzgün adlar seçilsin.

Bu yaxınlaradək uşaqlara biabırçı və mənfi məna doğuran adların verilməsi müşahidə olunurdu və bu, narahatedici idi. Bir neçə il öncə bu istiqamətdə qaydaların tətbiqinə başlanıldı. Bu, müsbət addımdır. Artıq mənfi mənalı adların uşaqlara verilməsinin qarşısı alınır və bu proses davam etməlidir.

Təəssüf ki, bəzi valideynlər bu məsələni düzgün qiymətləndirmir və ”ürəyim belə istəyir” deyərək, uşaqlarına uyğun olmayan adlar qoyurlar. Bu isə uşaqların gələcək həyatında psixoloji narahatlığa, bəzən isə məsxərəyə səbəb olur. Uşaq ömrü boyu bu adın yükünü daşıyır. Ona görə də bu məsələyə ciddi yanaşılmalı, həm maarifləndirmə aparılmalı, həm də inzibati tənzimləmə vasitəsilə qəbulolunmaz adların qoyulmasının qarşısı alınmalıdır.



# Zəfər dastanımızı yazan şəhidlər

***Tariximizə Vətən müharibəsi kimi adı həkk olunan savaşda od-alov püskürən cəbhələrində ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən vətənin mərd oğulları - Azərbaycan ordusu tariximizin şanlı səhifəsini yazdı. Zəfər tariximiz yaşandı. 44 günlük müharibədə od-alovu içində vuruşan oğullarımız böyük qürur və dəyanət, şücaət və əzmkarlıq nümayiş etdirdilər.***

Əlbəttə ki, müharibə böyük itki, təlafatdır. Xalqımız savaşı - bu tarixi yaşadı. Şəhidlərimiz də oldu, qazilərimiz də. Onları vətənə layiqli övlad kimi yetişdirən ANALARDIR. Dünyanın ən uca varlığı, müqqədəs, ülvi insanı olan ananın adının vətən ilə birgə çəkilməsi bu məfhumun həqiqətən də yaşadığımız həyatda müqayisə olunmaz məfhum olduğunu təsdiqləyir. Ana laylası ilə beşikdən boy atır, duaları ilə dünyamıza qədəm qoyuruq. Təmiz arzuların, müqəddəs hisslərin, uca arzuların ünvanı olan laylaların ilk səsindən daxili dünyamıza böyük duyğular, vətən, torpaq sevgisi hopur. "Göylər gurlamasın, sellər axmasın, küləklər əsməsin, şimşək çaxmasın, ana körpəsinə süd verən zaman". Bəli, anaya verilən dəyərdir, qiymətdir. Kimsə anaya toxunmasın, səsi ilə ananı dünyasından ayırmasın.

Gələcəyin vətənin keşiyində duran müsəlləh əsgərə beşik başından bu laylalar vasitəsi ilə vətəni qorumaq kimi müqəddəs bir hiss hopur. Çox keçmir ki, hər bir övlad ana borcunu verməyə, onun keşiyində durmağa çalışır. Hər ötən gündə saçına dən düşən analarımızın ağaran saçına qara tellər əkmək, onun üzünə salınan tale qırışlarına hamar yol salmaq üçün övlad düşünür. Bu yerdə şair Məmməd Arazın misraları yada düşür: "Hərdən inanmıram ölüm haqq ola. Ana dəfn oluna, gözəl qocala".

### SƏN VƏTƏNƏ ƏMANƏTSƏN, OĞUL!

Minbir əziyyətlə, gecəsini gündüzünə qatan analarımız vətənə oğul, düşmənə çəpər böyüdür. Gözünü qırpmadan belə, oğul, Vətən dardadır, sən vətənə əmanətsən - deyir, analar. Bu Azərbaycan anasının dilini ifadəsidir. Azərbaycan anası belə böyüklüyə sahibdir. Fərarilər böyütmür, ocağında vətənə oğul böyüdür. Əlbəttə ki, qəddi-qamətin hər zaman məğrur tutan və övladlarını vətənpərvər ruhda böyüdən analarımızın həyat hekayəsi bir örnəkdir, nümunədir.

**Orda bir evimiz bizlərə həsrət,**
**Yurddan didərginik, qonağıq, - dedin.**
**Yönümüz dağlara, düzlərə həsrət,**
**Getməsək ölərik, qınağıq, - dedin.**

Bəli, minlərlə analarımız bədiiləşmiş bir portretindən nəzmə çəkilən bu misralarda onların siması görünür. Yurd yerinə həsrət qalmış analar, ata-babalarının məzarını ziyarət etməyə həsrət analar var. Bu analar vətənə Mübarizləri, Poladları, İlqarları daha kimləri bəxş etmədi. Adları şəhidlik zivrəsində ucalan mərd, igid oğullarımız adlarını əməlləri ilə təsdiqlədilər.

Minlərlə oğullarımızın vətənin səsinə səs verməsi bu gün vətən həsrətində olan anaların öz yurd-yuvaların dönməsinə səbəb, 30 ilə qədər qubar bağlayan dərdlərə məlhəm oldular. Bu gün analar öz torpaqlarına yol alır və bu yolun mənzilinə.

### BİR İNSAN ÖMRÜNÜN TƏRCÜMEYİ-HALINA YAZILACAQ VƏRƏQLƏRİN 34 İLLİK TARİXİ

Bu gün şəhid oğullarımızın biri haqqında söz açacağıq-Amil Hüseynov. Bir kənd, bir mahalda dünyaya göz açan Amili bu gün bütün Azərbaycan tanıyır. 1986-cı ildə dünyaya göz açan Amilin sən demə, 34 illik bir yolu var imiş. Bir insan ömrünün tərcümeyi-halına yazılacaq vərəqlərin 34 illik tarixini yaza bildi. Qalan illərinə canını fəda edən şəhidimiz sabahın, gələcəyin dastanında öz adını həkk edib ki, onun haqqında yazılacaq hər bir söz bu ömür yolunun yarımçıq qalmadığından xəbər verəcəkdir. Füzulinin Əhmədalılar kəndində anadan olan Amil Rasim oğlu Hüseynov 1986-cı ildə dünyaya gəlib. Hər zaman ürəyi Vətən sevgisi ilə döyünən Amil hələ uşaq yaşlarından hərbçi olmaq istəyib. Məktəbdə oxuduğu müddətdə Amil idmanın karate növü ilə məşğul olub. Respublikada və xaricdə keçirilən yarışlarda iştirak edib və yüksək nailiyyətlər qazanıb, respublika çempionu olub. Gürcüstanda iştirak etdiyi beynəlxalq yarışda 1-ci yerə çıxıb. Amilin hərbi xidmətə olan marağı, Vətənə sevgisi onu öz arzusunun ardınca aparıb. 2004-2006-cı illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. 2010-cu ildən isə müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu idi. Kəşfiyyatçımız 9 il vətənə misilsiz xidmət göstərib. 2010-cu ildən Azərbaycan Respublikasının Daxili Qoşunlarında xidmətə başlayıb. Daha sonra Milli Ordumuzun sıralarında kəşfiyyatçı kimi fəaliyyətini davam etdirib. 2013-cü ildə Türkiyədə kəşfiyyatçı təlim kursu keçib. Vətən müharibəsinin iştirakçısı olan Amil Hüseynov Füzuli və Xocavənd uğrunda gedən döyüşlərdə xüsusi şücaəti ilə seçilib. Vətən Müharibəsi zamanı Füzuli istiqamətində gedən ən ağır döyüşlərdə böyük şücaət və igidlik göstərib. Amil Hüseynov beş il əvvəl oktyabrın 10-da Füzulidə şəhid olub. Füzuli rayonunun Əhmədalılar kəndində dəfn edilib.

Şəhid Amil ölümündən sonra Prezident İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilib. Şəhidin atası Rasim Hüseynov neçə-neçə şəhid atası kimi başını dik tutub, oğlu ilə fəxr edir. Oğlu Zəfərimizin yazılmasında rolu olan oğullardandır. "Şükür ki, torpaqlarımız azad olundu. Şəhidlərin qanı yerdə qalmadı" – deyir ata. Vətən üçün bundan fəxarətli nə ola bilər ki.

### ONDAN TƏK XATİRƏ UĞRUNDA CANINDAN KEÇDİYİ BAYRAQDIR

Təzəcə ailə həyatı qurmuş Amilin həyat yoldaşına ona Vətənin rəmzi olan üçrəncli bayraq qalıb. Həyat yoldaşı Xalisə Məmmədova verdiyi müsahibələrin birində deyir: "Bizim ailə həyatımız çox qısa çəkdi. Yenicə ailə qurmuşduq. Ancaq mən fəxr edirəm ki, bu cür şərəfli yolda şəhid olmuş insanın həyat yoldaşıyam. Amil həqiqətən fəxr ediləsi bir həyat yoldaşı, insan idi. Bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Düzdür, ondan mənə bir nişanə qalmasa da, tək təsəllim onun məqamıdır. Ondan mənə tək xatirə isə uğrunda canından keçdiyi bayraqdır".

Bu gün onun xatirəsi xalqın qəlbində yaşayır. Dövlətimiz və xalqımız şəhidin adını uca tutur. Şərəfli ömür yolu ilə Zəfər dastanımızı yazanlardan olan Amil neçə-neçə yetişən gəncimizə həyat yolu, məslək, əqidəsi ilə bir məktəbdir.

***Nəzakət ƏLƏDDINQIZI***

# Uşaqlar niyə yorulur? Məktəblərdə dərs yükü və psixoloji mühit problemi



***Son illər təhsil sistemində əsas müzakirə mövzularından biri şagirdlərin üzərinə düşən ağır dərs yükü və bunun yaratdığı psixoloji gərginlikdir. Araşdırmalar göstərir ki, həddindən artıq dərs saatları, çoxsaylı ev tapşırıqları və qiymət yönümlü yanaşma şagirdlərdə stress, təşviş, motivasiya itkisi və emosional tükənməyə səbəb olur. Bu baxımdan həm Azərbaycanda, həm də beynəlxalq təcrübədə dərs yükünün optimallaşdırılması və məktəblərdə sağlam psixoloji mühitin formalaşdırılması üçün müxtəlif proqram və mexanizmlər hazırlanır. SİA mövzu ilə bağlı araşdırma aparıb.***

### Tədris proqramlarının optimallaşdırılması

Əsas istiqamətlərdən biri kurikulumun yüngülləşdirilməsi və mövzuların yaş səviyyəsinə uyğunlaşdırılmasıdır. Məqsəd informasiyanın həcmini azaltmaq yox, onun məntiqi və praktik mənimsənilməsini təmin etməkdir. Bu çərçivədə:

-Təkrarlanan və artıq mövzular ixtisar olunur

-Əzbərçiliyin yerini bacarıq və səriştə əsaslı tədris tutur

-Dərs saatlarının paylanması daha balanslı şəkildə tənzimlənir

### Ev tapşırıqlarının tənzimlənməsi

Bir çox müasir təhsil modelində ev tapşırıqlarının miqdarı və mahiyyəti yenidən nəzərdən keçirilir. Məqsəd şagirdin dərsdənkənar vaxtının tamamilə dərslə yüklənməsinin qarşısını almaqdır. Bunun üçün:

-Az, lakin məqsədyönlü tapşırıqlar verilir

-Yaradıcılıq və araşdırma yönümlü tapşırıqlara üstünlük verilir

-Kiçik siniflərdə ev tapşırıqlarının minimuma endirilməsi tövsiyə olunur

### Məktəblərdə psixoloji xidmətlərin gücləndirilməsi

Psixoloji mühitin yaxşılaşdırılmasında məktəb psixoloqlarının rolu xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə:

-Məktəblərdə psixoloq ştatlarının artırılması

-Şagirdlərin emosional vəziyyətinin mütəmadi monitorinqi

-Stress, bullinq və adaptasiya problemləri ilə bağlı fərdi və qrup məşğələləri

-Valideynlər üçün maarifləndirici görüşlər həyata keçirilir

### Sosial-emosional öyrənmə proqramları

Bir sıra ölkələrdə və pilot məktəblərdə sosial-emosional bacarıqların inkişafına yönəlmiş proqramlar tətbiq olunur. Bu proqramlar şagirdlərdə:

-Özünüifadə və emosiyaların idarə olunması

-Empati və ünsiyyət bacarıqları

-Münaqişələrin dinc yolla həlli

-Psixoloji davamlılıq (rezilyentlik) formalaşdırır

### Qiymətləndirmə sistemində dəyişikliklər

Yalnız summativ qiymətləndirməyə əsaslanan sistemlər şagirdlərdə ciddi psixoloji təzyiq yaradır. Buna görə də:

-Formativ qiymətləndirmənin payı artırılır

-Şagirdin fərdi inkişafı əsas meyar kimi götürülür

-Müqayisə yox, irəliləyiş prinsipi önə çəkilir

### Müəllimlərin psixoloji hazırlığı

Sağlam məktəb mühiti yalnız şagirdlə deyil, müəllimlə də bağlıdır. Bu səbəbdən müəllimlər üçün:

-Stressin idarə olunması

-Şagird psixologiyası

-Konfliktlərin idarə edilməsi mövzularında təlimlər təşkil olunur.

Mütəxəssislərin fikrincə, dərs yükünün azaldılması və psixoloji mühitin yaxşılaşdırılması paralel şəkildə həyata keçirilməlidir. Yalnız proqram dəyişiklikləri deyil, məktəb mədəniyyətinin bütövlükdə humanist və şagirdyönümlü yanaşma üzərində qurulması əsas hədəf olmalıdır. Bu cür proqramlar uzunmüddətli perspektivdə həm şagirdlərin psixoloji sağlamlığını qoruyur, həm də təhsilin keyfiyyətini yüksəldir.

ARAŞDIRMA

***Ayşən Vəli***

# İsa Qəmbər “KQB” zabiti kimi danışır...



***Sovetlər birliyinin qan-qan dediyi vaxtlarda kiminsə müstəqil fikir söyləməsi, razılaşdırmadan addım atması və ya başına adamlar toplayıb siyasi, ictimai təşkilat yaratması qeyri-mümkün idi. Belə xəyallara düşənlər beşikdəcə məhv edilirdilər. Çünki hakimiyyətin söykəndiyi bir ideologiya, həyata keçirdiyi bir siyasət vardı. Kommunist partiyası bütün sovetlər birliyi vətəndaşlarının arxalandığı yeganə siyasi təşkilat hesab olunurdu. Ancaq elə ki, sovetlərin sütunları laxlamağa başladı bəzi şəxslər məqsədyönlü iddialara düşdülər.***

Bu zaman sovet ”KQB”si müəyyən razılaşmalar əsasında onlara müsbət rəy verdi. Beləliklə, sovet respublikalarında, o cümlədən Azərbaycanda ötən əsrin 88-ci illərindən etibarən ”KQB”-nin şinelindən çıxan insanlar üzə çıxmağa başladılar. Hansı ki, bu şəxlərin əksəriyyəti düz-əməlli biliyə, savada, əqidəyə malik deyildilər. Lakin xüsusi proqram əsasında onlar insanların arasında nüfuz və hörmət sahiblərinə çevrildilər. Bir qədər sonra ittifaq daxilində sensasiya sayılan hadisə baş verdi- bir neçə nəfər toplaşaraq AXC adlı siyasi təşkilat yaratdılar. Təşkilatın sədri formal olaraq Əbülfəz Elçibəy olsa da, əsas idaredicilər ”KQB” məktəbinin sanballı simalarında hesab olunan Müsavatın indiki başqanı İsa Qəmbər, AXCP sədri Əli Kərimli və digərləri oldu. Sonuncu şəxslər heç bir zaman qalmaqallı proseslərə qatılmır və özləri haqqında mənfi rəyin formalaşmasına imkan vermirdilər. Fikir verin, 1990-cı il yanvarın 20-də Bakı şəhərində sovet ordusu Azərbaycan xalqına qarşı dəhşətli vəhşiliklər törətdi, insanlar öldürüldü, külləvi həbslər həyata keçirldi, ancaq İsa Qəmbər, Əli Kərimli və digərləri zərər görmədilər. 1990-cı il 20 Yanvar qırğını zamanı baş verənlər İsa Qəmbərin DTK-nın gizli agenti olduğuna bir daha təsdiqlədi. Məlumatlara görə, faciənin hazırlanmasında İsa Qəmbər və Əli Kərimli də yaxından iştirak ediblər. Hətta Viktor Polyaniçkonun ideya müəllifliyi ilə yaradılan və İsa Qəmbərin təmsil olunduğu ”Gənc alimlər klubu” 20 yanvar faciəsinin törədilməsinə zəmin hazırlayıb. Məlumatlara görə, həmin ilin yanvar ayının ilk ongünlüyündə AXC-nin ilk konfransında parçalanma yaradan, nəticədə radikal qanadın Müdafiə Şurası yaratmasına nail olan ”Gənc alimlər klubu” baş verəcəkləri izləmək üçün fəaliyyətini arxa plana çəkib.Qırğın törədildikdən sonra əli Kərimli və İsa Qəmçbər yoxa çıxdılar. Sonradan məlum oldu ki, ”KQB” onların daha təhlükəsiz yer də gizlənmələrini təmin edib Meydan hərəkatının üzvlərindən olan Zərdüşt Əlizadənin sözlərinə görə, İsa Qəmbəri qoruyanlardan biri Yanvar qırğınının əsas təşkilatçılarından olan Yevgeni Primakov olub. Yanvar hadisələrindən öncə Primakov Əbülfəz Elçibəyi və İsa Qəmbəri qəbul edib: ”Görüşdə Primakov bildirib ki, hazırki şəraitdə xalqı küçəyə çıxarmayın. İsa Qəmbər də deyib ki, ”dinc nümayişlər xalqın konstitusion hüququdur”.

Məlumatlara görə, 20 yanvar faciəsindən bir gün öncə AXC-nin fəallarına divan tutulması müzakirə olunarkən, Viktor Polyaniçko İsa Qəmbər haqqında ”İsa Kambar naş çelovek!” deyib və daha sonra onun qorunmasını təmin edib. Əslində, Viktor Polyaniçkonun yaratdığı ”Gənc alimlər klubu”nda ”parlayan” İsa Qəmbərin xidmətləri qarşılığında qorunması gözlənilən idi. Azərbaycan xalqı 20 yanvar faciəsinin hüznlü günlərini yaşadığı zaman İsa Qəmbər və Əli Kərimli müxtəlif qonaqlıqlarda kef çəkirdilər. Bir qədər sonra isə onlar meydana çıxıb, heç nə olmamış kimi siyasi bəyanatlarla çıxış etdilər, özlərinə reytinq qazandırmaq üçün pafoslu bəyanatlar səslələndirdilər. Nəticə onlar üçün uğurlu oldu. AXC yenidən formalaşan zaman İsa Qəmbər, Əli Kərimli və digərləri siyasi təşkilatın əsas aparıcı şəxsləri seçildilər. Bu cür xüsusi statuslar AXC-nin 1992-ci ildə hakimiyyəti zor gücünə zəbt edən zaman işlərinə yaradı. Beləliklə İsa Qəmbər parlamentin sədri, Əli Kərimli isə dövlət katibi oldular. Faktiki bu iki şəxs ölkənin idarə edilməsini həyata keçirən şəxslər idilər. Heç zaman bu şəxslər Elçibəyi prezident olaraq qəbul etmirdilər, özləri istəklərinə uyğun qərarlar verir və addımlar atırdılar.

### ”Azərbaycan Xalq Cəbhəsinin liderlərinin çoxu ”KQB” ilə birbaşa əməkdaşlıq edirdilər”

İsa Qəmbər Elçibəyin əsas silahdaşı olduğunu bildirdiyi halda parlament sədriliyinin 5-ci ayında Müsavat adlı partiya yaratdığını elan etdi. Təbii ki, Müsavatın yaradılması səbəbsiz deyildi, ”KQB” belə istəmişdi. Eyni siyasi, ideoloji məfkurəni bölüşdüklərini elan edən şəxslər bir-birinə necə müxalifətdə ola bilərlər? Digər tərəfdən onlar eyni komandada təmsil olunurdular. Deməli, deyilənlər və yazılanlara əsaslıdır-İsa Qəmbər ”KQB” agentidir. Bu gün də öz vəzifəsini və ötən əsrin 88-ci ilində üzərinə götürdüyü öhdəliyi ”ləyaqətlə” yerinə yetirir. Nəzərə almaq lazımdır ki, Əli Kərimlinin, İsa Qəmbərin tərcümeyi-halına hərtərəfli bələd olan Azərbaycan SSR ”KQB”-sinin keçmiş rəhbəri Vaqif Hüseynovun milli-azadlıq hərəkatının başlaması və tarixi ilə bağlı xatirələrində AXC-nin Moskvanın razılığı ilə yaradıldığını bildirmişdir. O dövrün hadisələrinin iştirakçısı olmuş Ayaz Mütəllibov Azərbaycan mətbuatına verdiyi açıqlamasında Vaqif Hüseynovun AXC ilə bağlı fikirlərinin əsaslı olduğunu söyləmişdir. A.Mütəllibov bildirmişdir ki, M.Qorbaçov yenidənqurması dövründə qeyri-formal siyasi təşkilatlar, bu dalğa üzərində isə keçmiş SSRİ-nin bir çox yerlərində, o cümlədən də Azərbaycanda Xalq Cəbhəsi yaradılmağa başlanmışdı: ”Bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da Xalq Cəbhəsi ozamankı sovet DTK-sı tərəfindən ciddi nəzarətdə saxlanılırdı. Bundan başqa, Azərbaycan Xalq Cəbhəsinin liderlərinin çoxu ”KQB” ilə birbaşa əməkdaşlıq edirdilər. İndi Xalq Cəbhəsinin bəzi liderlərinin bu təşkilatın Azərbaycandakı milli-azadlıq hərəkatı nəticəsində yarandığını deməsi məndə, sadəcə olaraq, gülüş doğurur. Çünki Sovet İttifaqında heç bir təşkilat, illah da qeyri-formal, yarımgizli təşkilat SSRİ ”KQB”-sinin bilavasitə iştirakı və icazəsi olmadan yaradıla bilməzdi və bu adamlar yuxarıdan razılıq olmadan heç bir müstəqil addım ata bilməzdilər. Mən bunu Xalq Cəbhəsi liderlərinə də dəfələrlə demişdim ki, əgər ermənilər bizə qarşı artıq bir cəbhə açıblarsa, onda ikinci cəbhəni yaratmaq nəyə və kimə lazımdır, biz bu cəbhəni kimə qarşı yaradırıq. Mən Xalq Cəbhəsi liderlərinə təklif etdim ki, gəlin, ermənilərə qarşı vahid bir cəbhədə birləşək. Lakin Qarabağ məsələsi onları qətiyyən maraqlandırmırdı, onlar yalnız hakimiyyətə gəlmək ehtirası ilə alışıb yanırdılar. Onlar Azərbaycanda vəziyyəti gərginləşdirmək üçün əllərindən gələni edirdilər”.

### SSRİ ”KQB”-sinin keçmiş sədri Vladimir Kryuçkov sərhədləri dağıdan AXC liderlərinin həbs edilməsinə qadağa qoymuşdur

A.Mütəllibov onu da bildirmişdir ki, SSRİ ”KQB”-sinin keçmiş sədri Vladimir Kryuçkovun Azərbaycanla indiki fars-molla rejiminin nəzarət etdiyi torpaqlarının sərhədlərini dağıdan AXC liderlərinin həbs edilməsinə qadağa qoymuşdur: ”AXC-nin həmin liderləri elə ”KQB”-nin özünün yaratdığı alətları idi. Çox təcrübəli kəşfiyyatçı olan Kryuçkov tanımadığı adamları heç vaxt müdafiə etməzdi. Azərbaycan Xalq Cəbhəsi rəhbərliyindəki şəxslərin kim olması da Kryuçkova çox yaxşı məlum idi. Mümkündür ki, bütün bu hadisələr razılaşdırılmış şəkildə həyata keçirilirdi. Və Azərbaycanın qonşu ölkələrlə sərhədlərini dağıdanlar da bununla özlərinin birbaşa şeflərinin ölkədə siyasi vəziyyətin gərginləşdirilməsinə və nəzarətdən çıxarılmasına dair tapşırıqlarını yerinə yetirirdilər. Bizim bütün problemlərimiz, o cümlədən torpaqlarımızın işğalı həmin illərdəki hadisələrin nəticəsidir”.

Vaqif Hüseynovun və Ayaz Mütəllibovun açıqladıqları fikirlərə, eləcə də ortada olan digər faktlara əsasən qeyd etmək olar ki, bu gün Müsavat başqanı İsa Qəmbərin və AXCP sədri Əli Kərimlinin Rusiya maraqlarına uyğun fəaliyyət yolu tutmaları gözlənilləndir. Çünki agent heç zaman öz missiyasından imtina edə bilməz. Yəni agentlər ömürlərinin sonuna qədər üzərilərinə götürdükləri vəzifələri yerinə yetürməyə məhkümdülər. Ona görə də, İsa Qəmbər, Əli Kərimli, Ramiz Mehdiyev və digərləri heç bir bəhanə gətirmədən, süründürməçiliyə yol vermədən Rusiya xüsusi xidmət orqanlarından gələn sifarişləri yerinə yetirirlər. İsa Qəmbər danışarkən elə düşünülür ki, sanki ”KQB” zabiti danışır. Əli Kərimlinin fikirlərinə diqqət yetirlərəkən o qənaətə gəlmək olar ki, o ”KQB” məktəbinin stolunun üstündən olan dərsliklərdən istifadə edir. Ramiz Mehdiyevin və dəstəsinin ifşa olunmasından sonra bir daha təsdiq olundu ki, Əli Kərimli və İsa Qəmbədr Rusiya xüsusi xidmət orqanları ilə əlaqələrini kəsməyiblər. Əksinə, Ramiz Mehdyev vasitəsi ilə onlara Rusiyadan ötürülən sifarişləri yerinə yetirməyə cəhd etməklə ”KQB” andına sədaqətli olduqlarını nümayiş etdiriblər.

Əli Kərimlinin, İsa Qəmbərin və digər dağıdıcı müxalif ünsürlərin maddi və mənəvi ehtiyaclarının Ramiz Mehdiyev vasitəsi ilə ödənilməsi təsadüfi sayıla bilməz. Qarşılığında üçlük modeli yaradıblar. Ölkədə ictimai-siyasi sabitliyə xələl gətirmək üçün 2003-2019-cu illər ərzində Əli Kərimli və İsa Qəmbərin etiraz aksiyaları təşkil etmələri məhz R.Mehdiyevin tapşırığı əsasında baş verib. 2013-cü il prezident seçkiləri ərəfəsi ”Milli Şura” deyilən qondarma qurumun yaradılması və rəsmi Kremlin adamı olan Rüstəm İbrahimbəyovun namizədliyinin irəli sürülməsi də R.Mehdiyevin göstərişi olub. Elə ki, məkrli planlar bir işə yaramadı, o zaman Ramiz Mehdiyev-İsa Qəmbər-Əli Kərimli üçlüyü zorakı yollarla Rusiyanın tələblərini yerinə yetirməyə cəhdlər göstərdilər. Lakin yenə də pozucu niyyətləri baş tutmadı və Ramiz Mehdiyev, Əli Kərimli, Məmməd İbrahim və digərləri həbs olundular. İsa Qəmbərin hələ də azadlıqda qalması o demək deyil ki, o Ə.Kərimlinin taleyini yaşamayacaq. Əminliklə demək olar ki, İ.Qəmbər həbs olunacaq və rəhbərlik etdiyi partiyanın dövlət qeydiyyatı ləğv ediləcək. Çünki qanunu pozan istənilən şəxs qanun qarşısında cavab verməlidir.

***İLHAM ƏLİYEV***

# Yeni ildə Azərbaycan manatının dollara qarşı məzənnəsi necə olacaq?

***İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2026- 2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülmüşdür.***

*İqtisadçı ekspert mühüm detalları açıqladı*



Başqa sözlə, hökumət hazırkı şərtlərdən çıxış edərək 2029-cu ilin sonunadək devalvasiya nəzərdə tutmur. Məsələ ilə bağlı Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli SİA-ya fikirlərini bölüşüb: “Yeni il ərəfəsində aparılan iqtisadi qiymətləndirmələr göstərir ki, Azərbaycan manatının ABŞ dollarına qarşı məzənnəsinin dəyişməz qalacağı və mövcud səviyyədə saxlanılacağı gözlənilir. Beynəlxalq reytinq agentliklərinin və rəsmi iqtisadi qurumların proqnozlarına əsasən, yaxın dövrdə 1 ABŞ dollarının 1,7 Azərbaycan manatı ətrafında formalaşması ehtimalı yüksəkdir.

Manatın məzənnə sabitliyi əsasən Azərbaycan Mərkəzi Bankının həyata keçirdiyi valyuta siyasəti, ölkənin kifayət qədər valyuta ehtiyatlarına malik olması, eləcə də neft sektorundan əldə edilən gəlirlərlə şərtlənir. Bu amillər milli valyutanın xarici təsirlərə qarşı davamlılığını təmin edən əsas dayaqlar kimi çıxış edir.

Eyni zamanda, qlobal maliyyə bazarlarında kəskin dalğalanmaların baş verməməsi və dünya neft qiymətlərində ciddi azalmaların müşahidə olunmaması şəraitində yaxın perspektivdə manatın dəyərində kəskin dəyişiklik və ya devalvasiya riskinin aşağı səviyyədə qalacağı proqnozlaşdırılır. Mövcud makroiqtisadi balansın qorunması valyuta bazarında nisbi sabitliyin davam etməsinə imkan yaradır”.

***Günay Hacıyeva***



# Çay nədir, say nədir?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*



***Bu gün dünyada sudan sonra ən çox istehlak edilən içki çaydır. Bir çox ölkədə çay, hətta yerli əhalinin çox sevdiyi, ikinci və üçüncü yerlərdə qərarlaşan qəhvə və pivəni geridə qoyur. Çay bir çox cəmiyyətlərdə mədəniyyətin əsas hissəsidir, bir çox mədəniyyətdə çay münasibətləri inkişaf etdirən, səmimi mühit yaradan və qonaqpərvərlik aşılayan içki hesab olunur.***

Çayın dəqiq mənşəyi məlum olmasa da, onun Hindistanda, Myanmada və Çində yarandığına inanılır. Çayın Çində 5000 il əvvəl istehlak edildiyinə dair dəlillər var ki, bu da onu dünyanın ən qədim içkilərindən birinə çevirir. Maraqlı burasıdır ki. bir çox dillərdə çay sözü elə çay kimi tələffüz edilir. Cənubi Asiyanın, Cənub-Şərqi Asiyanın, Mərkəzi Asiyanın, Yaxın Şərqin və Şərqi Avropanın bir çox yerində çay sözü "cha" sözündən əmələ gəlir. Bu fakt çayın əslində beynəlxalq səviyyədə sevilən içki olmasının göstəricisidir.

Çay bitkisi adətən tropik və subtropik iqlimlərdə yetişdirilir və burada onun becərilməsi və emalı milyonlarla insanın dolanışığını təmin edir. "Tea and Coffee Trade Journal" jurnalının "Global Tea Report" nəşrinin son məlumatlarına görə, dünya çayının təxminən yarısı (48 faiz) Çində istehsal olunur. Hindistan dünya istehsalının 20 faizini təşkil edərək ikinci ən böyük istehsalçıdır, ardınca Keniya (8 faiz), Türkiyə (4 faiz) və Şri-Lanka (3 faiz) gəlir. Dünyanın qalan hissəsi qlobal miqyasda çay istehsalının 17 faizini təşkil edir.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məlumatına görə, dünya çay istehlakı əvvəlki illərlə müqayisədə 2022-ci ildə artaraq 6,5 milyon tona çatıb. Ən böyük çay istehlakçısı olan Çində istehlak 2022-ci ildə 3 milyon tona çatıb ki, bu da qlobal istehlakın 46 faizini təşkil edir.

İkinci ən böyük istehlakçı olan Hindistanın payı 2022-ci ildə 1,16 milyon tonla təxminən 18 faiz təşkil edib, ardınca Türkiyə 250.000 ton, Pakistan 247.000 ton və Rusiya 133.000 tonla gəlir. FAO-nun məlumatına görə, çay istehlakı 2021-ci illə müqayisədə 2022-ci ildə 2 faiz artıb və 2023-cü ildə daha da artıb. Lakin Avropa və Şimali Amerika ölkələrində çay istehlakı digər içkilərlə artan rəqabət səbəbindən azalmaqdadır, Rusiya üçün isə çay idxalına



Ukraynadakı müharibə mənfi təsir göstərib.

Dünyada ən məşhur və tələbat olan çay növü "Camellia sinensis" bitkisindən hazırlanan çaylardır. Bu bitkidən hazırlanan çaylar "əsl çay" hesab olunur. Çox sevdiyimiz qara çay bu bitkidən əldə edilir. "Camellia sinensis"dən əldə edilən qara çay digər çay növlərindən emal üsuluna görə fərqlənir. Emal prosesində yarpaqlar yığılır, soldurulur, tam oksidləşmə (fermentasiya) prosesi aparılır, qurudulur. Məhz bu tam oksidləşmə qara çaya tünd rəng, güclü aroma və daha sərt dad verir. Ən çox tələbat olan növləri Hindistanda yetişdirilən "Assam", Şri-Lankanın brendinə çevrilən "Ceylon", Böyük Britaniyanın "Earl Grey"i, Britaniyanın " English Breakfast"ı və Türkiyənin məşhur "Rize çayı"dır.

Bir çoxlarının sevdiyi yaşıl çay (Green Tea) isə fermentasiya olunmadan əldə edilir. Yaşıl çayın dünyada məşhur növləri Yaponiyanın "Sencha", "Matcha", Çinin "Longjing" (Dragon Well), Çin və Mərakeşin "Gunpowder"adlandırdığı növlərdir. Çayın "oolong" və "ağ çay" adlandırılan növləri də var ki, bizim ölkədə çox tələbatə yoxdur. Oolong çayı yarımfermentləşdirilmiş çaydır. Ağ çay isə ümumiyyətlə fermentasiya olunmur, minimal emaldan keçir, tumurcuqlar və açılmamış yarpaqlardan hazırlanır. Bu çaylardan başqa tələbatı çox olan bir çay növü də var ki, o da Pu-erh (Pu'er) adlanır. Pu-erh çayı xüsusi fermentasiya olunmuş çaylar qrupuna aiddir. Emal xüsusiyyəti uzunmüddətli mikrobioloji fermentasiya və yaşlandırmadır.

Ümumilikdə, dünyada 1000-dən çox çay növü mövcuddur və əsas çaylar 5 böyük kateqoriyaya bölünür: qara, yaşıl, ağ, oolong və pu-erh. Bunlara əlavə olaraq hər ölkənin öz florasına uyğun bitki və meyvə çayları var və bu çaylar hər ölkənin mədəni kimliyinin bir hissəsidir. Bizim ölkəmizdə də qara çayla yanaşı çiçək və otlardan hazırlanmış təbii çaylar da çox istehlak edilir. Xoşbəxtlikdən, Azərbaycanın iqlimi orqanizm üçün faydalı bitkilərlə zəngin olduğu üçün çay çeşidimiz də bir o qədər çoxdur.

***Lalə Mehralı***

# Təhsildə bərabərlik məsələsi: maddi imkanlar, yoxsa regional fərqlər?



***"Təhsildə bərabərlik daha çox maddi imkanlardan, yoxsa regional fərqlərdən asılıdır? Əslində, hər iki faktor burada təsiredicidir. Yəni, həm maddi imkanlar, ailənin maddi təminatı, eyni zamanda burada paytaxtdan uzaq məsafədə yerləşmək və region faktoru təbii ki, öz təsirini göstərir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov deyib.***

Onun sözlərinə görə, ilk öncə mən maddi imkanların təsirlərindən danışmaq istəyirəm: "Ümumiyyətlə, maddi imkanlar daha çox təhsilə əlavə resurslardan istifadə imkanları yaradır. Bunlar nədir? Tutaq ki, maddi imkanı yaxşı olan ailənin uşağı yaxşı özəl məktəbdə oxuya bilər. Eyni zamanda, maddi imkanı yaxşı olan ailə istənilən bölgədə və ya istənilən yerdə yaşamaq seçimini əldə edə bilər və bu da təbii ki, daha yaxşı məktəbdə təhsil almağı şəklən-dirə bilər. Tutaq ki, əlavə kurslardan, daha yaxşı kurslardan istifadə imkanını formalaşdıra bilər. Onlar köməkçi resurslardan, eyni zamanda daha yaxşı repetitorların xidmətlərindən istifadəni asanlaşdıra bilər. Yəni, maddi baxımdan imkan təbii ki, əlavə fürsətlər yaratmaq baxımından faydalıdır.



Regiondan asılı olaraq müəyyən resurslara əlçatanlıq azala bilir. Məsələn, şagirdin oxuduğu məktəbin infrastruktur imkanları zəifləyə bilir. Regionlarda, tutaq ki, yaxşı özəl məktəb tapmaq imkanı demək olar ki, yoxdur və yaxud çox azdır. Digər tərəfdən, rəqəmsal texnologiyalara çıxış imkanı zəifləyir. Eyni zamanda, tutaq ki, yaxşı müəllimlər çalışırlar ki, daha çox prestijli məktəblərdə, daha çox şəhər məktəblərində cəmləşsinlər. Təbii ki, mən region müəllimlərinin fədakarlığını yüksək dəyərləndirən biriyəm, bizim regionlarda da çox yaxşı müəllimlər var. Amma bəzən biz bunu müəllimlərin işə qəbul imtahanlarının son ildəki nəticələrindən də görürük ki, region məktəblərində müəllim çatışmazlığı müşahidə olunur və s. Amma paytaxtda, tutaq ki, belə hallar yoxdur.O mənada qeyd etdiyim nüanslar təhsildə bərabərliyin zəifləməsinə gətirib çıxarır. Amma təbii ki, Azərbaycan dövlətinin Konstitusiyasında, eyni zamanda təhsillə əlaqəli qanunvericilikdə təhsilin əlçatanlığı və eyni zamanda dövlətin bütün vətəndaşlar üçün bərabər təhsil imkanları yaratması əks olunub. Amma qeyd etdiyim faktorlar sadəcə olaraq əlavə təhsil almaq imkanları üçün fürsətləri genişləndirir".



***Ziya***

SON SƏHİFƏ
SƏS
16 dekabr 2025-ci il

**“SƏS” qəzetinə abunə kampaniyası davam edir!**



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# İnsanların Yeni İldən gözləntiləri nələrdir?

***Yeni il bayramı hər il olduğu kimi bu il də insanların düşüncələrində xüsusi yer tutur. Bayram ərəfəsində şəhərdə artıq fərqli bir ab-hava hiss olunur, insanlar geridə qalan ilə nəzər salır, qarşıdan gələn ildən isə yeni ümidlər və gözləntilər formalaşdırırlar.***



SORĞU

Kimi yeni ili ailə əhatəsində keçirməyi planlaşdırır, kimi xidmət borcunda olur, kimi isə həyatında yeni mərhələyə qədəm qoymağı arzulayır. SİA bu əhval-ruhiyyəni öyrənmək üçün şəhər sakinləri arasında sorğu apardı və onların yeni ili harada qarşılayacaqları, eləcə də 2026-cı ildən nələr gözlədikləri ilə maraqlandı.

**Şəhər sakini Sadiq Ağarzazadə:**“Bu yeni ildə mən əsasən evdə olacağam, imtahana hazırlaşıram. Bu dövr mənim üçün olduqca məsuliyyətlidir. Ən böyük arzum da universitetə qəbul olmaqdır. Yeni ili evdə ailəmlə, atamla, anamla, qardaşımla qeyd edəcəm. Bu, mənə əlavə motivasiya verir. Bu il, yəni 2025-ci ildə 11-ci sinifdə oxuduğuma və universitetə hazırlaşdığıma görə dərs yüküm artdı. Daha çox öz üzərimdə işlədim. Telefondan uzaqlaşdım. Ümid edirəm ki, 2026-cı ildə mənim üçün çox böyük dəyişiklik olacaq və mən tələbə adını qazanacam. Ümid edirəm ki, 2026-cı il xalqımız və bizim üçün uğurlu bir il olar”.

**Şəhər sakini Gülarə Cumayeva:** “Yeni ili ən yaxşı keçirmək elə öz ailəmizin əhatəsindədir. Ailə dəyərləri bizim üçün hər zaman ön plandadır. Nəvələrimlə, övladlarımla birlikdə keçirməyə çalışırıq öz evimizdə. Bu, bizim üçün ən gözəl bayramdır. Bəlkə də rayona gedə bilərik, Zaqatalaya. Amma bu il yeni il xoş arzularla gəlsin istəyirik. Övladlarımıza can sağlığı, işlərində nailiyyətlər, nəvələrimə də uğurlar – hamısına arzulayıram. Yeni il onlar üçün ancaq xoş xəbərlər gətirsin. İl hər halda pis il deyildi, yaxşı il idi. Amma işlərimiz gələn il bu ildən də yaxşı olsun”.

**Şəhər sakini Sadiq Qədirov:** “Keçən il Yeni ildə, yəni 2025-ci ildə əsgərlikdə olmuşdum. Buna görə də Yeni ili o qədər də şən keçirə bilməmişdim. Bu il isə, yəni 2026-cı ili çox güman ki, ailəmlə birlikdə Göyçayda qeyd edəcəm. Ailəmin əhatəsində olacam. Onlarla birlikdə gözəl vaxt keçirməyə çalışacam. Mənim üçün 2025-ci il çox uğurlu bir il oldu və ümid edirəm ki, 2026-cı ildə bundan da gözəl və uğurlu bir il olsun”.

**Şəhər sakini Həqiqət Səlimova:** “Yeni ili elə doğma şəhərimizdə ailəmizlə birlikdə keçirəcəyik. Bu, bizim üçün ən böyük xoşbəxtlikdir. Çox şükürlər olsun ki, Qarabağımız azaddır. Prezidentimizin rəhbərliyi ilə, ordumuzun köməkliyi ilə azad etmişik. Bu gün sərbəst və xoşbəxt insanlar kimi yaşayırıq. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Azərbaycan bütövdür. Bundan gözəl daha nə lazımdır bizə? 2025-ci ildə nəvələrim universitetə qəbul oldular. Biri İqtisad Universitetində oxuyur, Bakıdadır. Digəri isə Xəzər Universitetində turizm üzrə təhsil alır. Mən də onlarla birlikdə yaşayıram. Onlar da təhsil alırlar. Çox şükür, bu ilimiz gözəl keçdi. Allah arzusunda olanlara da qismət eləsin”.

**Şəhər sakini İbrahim Musayev:** “Yeni ili həmişəki kimi Azərbaycanda, Bakıda ailəmlə keçirəcəyəm. Yeni ilin özünəməxsus gözəl atmosferi var. Yeni stendlər qurulub, şəhər çox maraqlıdır. Yeni ildən arzumuz daha gözəl bir ildir. Ən əsası da qar gözləyirik. Ən çox istədiyimiz odur ki, qar yağsın bu yeni ildə. 2025-ci il mənim həyatımda çox xoş illərdən oldu. Amma dəyişikliklər də oldu. Mənə qalsa, hər biri gözəldir. 2026-cı ilin də bizə xoş, özəl şeylər bəxş edəcəyinə inanıram”.

**Şəhər sakini Şahmar Məmmədov:** “İnşallah Yeni ili mən hərbidə keçirəcəyəm. Hal-hazırda məzuniyyətə gəlmişəm və ailəmlə, dostlarımla vaxt keçirirəm. Bu günlər mənim üçün çox dəyərlidir. 2025-ci ili mən yaxşı keçirdim, hər şey yaxşı oldu. 2026-cı ildən çox gözəl gözləntilərim var. Çünki çox gözəl işlərim, planlarım var. İnşallah, onları gələcəkdə bir-bir reallaşdıracağam”.

**Şəhər sakini Tərlan Məmmədov:** “2026-cı ili fərqli olaraq əsgərlikdə keçirəcəyəm. Bu da həyatımın məsuliyyətli dövrlərindən biridir. 2025-ci ili çox yaxşı başa vurduq. İnşallah, 2026 daha da yaxşı olar, ötən illərdən daha yaxşı keçər. Planlarımız çoxdur. Allahın köməyi ilə bütün planlarımı reallaşdıracağıma inanıram”.

***Z. Hikmətoğlu***

# "Gənclərin ölkədən getməsi iqtisadi itkidir"

***“Gənclər ona görə xaricdə işləməyə gedirlər ki, ölkədə iş tapa bilmirlər. Təbii ki, gənclərin ölkədən getməsi birinci növbədə ölkə üçün “beyin axını” deməkdir". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Xalid Kərimli deyib.***



EKSPERT DANIŞDI

O bildirib ki, çünki gənclərin yetişdirilməsinə ailələr və dövlət çoxlu vəsait xərcləyir: ”Orta təhsil, səhiyyə, ali təhsil – bunların hamısı üçün dövlət büdcəsindən ciddi xərclər ayrılır. Orta təhsil və məktəbəqədər tərbiyə demək olar ki, pulsuzdur. Ali təhsil isə



qismən ödənişsizdir, lakin bu, o demək deyil ki, heç bir xərc yoxdur – sadəcə dövlət həmin xərci tələbənin əvəzinə ödəyir. Eyni zamanda ailələr də bu prosesə böyük əmək və resurs sərf edirlər.

Amma nəticədə gənc öz ölkəsində öz resurslarını reallaşdıra bilmir və xaricə gedir – beyin axını baş verir. Gedən gənc həm də cəmiyyətin fəal işçi qüvvəsidir və başqa ölkələrin iqtisadiyyatına töhfə verir. Əgər insan cəmiyyət üçün faydalıdırsa, onun getməsi o cəmiyyət üçün itkidir. Əgər Azərbaycan timsalında danışırıqsa, bu ölkənin ən ciddi iqtisadi problemlərindən biridir. Bu, xalqımızın daha sürətli inkişafına əngəl törədən əsas faktorlardandır. Yeni insanlar öz yaşadıqları ərazidə iş tapa bilmədikləri üçün məcbur qalıb ölkəni tərk edirlər. Bu isə həm sosial, həm də iqtisadi baxımdan mənfi nəticələr doğurur”.

***Günel Fərzəliyeva***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**